

PANALPINA
on 6 continents

# CODE OF CONDUCT

04|08

## Giriş
Nə üçün Davranış Kodeksi? - Monika Ribar, Icracı Direktor 3

## Ümumi göstərişlər
Mən bu Kodeksə əməl etməliyəmmi? 4
Müxtəlif ölkələrin müxtəlif qanunları haqqında nələri bilirik? 4
Sualım olarsa, yardım üçün hara müraciət etməli? 4
Kodeksin pozulması ilə bağlı hara məlumat verməliyəm? 4
Digərlərinə rəhbərlik edənlərin vəzifələri 4

## Bizim Davranış Normalarımız
### Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühit
Sağlamlıq və Təhlükəsizlik 5
Ətraf Mühit 5

### Əmək Kollektivi Üzvləri arasında Münasibətlər
Qarşılıqlı Ehtiram və Səmimiyyət 5
Ayrı-seçkilik və Sıxışdırma 5
Mənafelərin Ziddiyyəti 5
Panalpina adından Kənar Əlaqələr 5
Məxfilik 6

**Biznes Tərəfdaşları**
Rəqabət və Ədalətli İşgüzar Münasibətlər 6
Rəqabət və Antiinhisar 6
Rəqabətçi haqda Məlumatlar 6
Ticarət Məhdudiyyətləri 6

**Rüşvət və Korrupsiya**
Rüşvət 6
Asanlaşdırma Ödəmələri 7
Üçüncü Tərəflər vasitəsilə Dolayı Rüşvət 7
Bəxşişlər, Qonaqpərvərlik, Əyləncə və Xərclər 7
Siyasi Təşkilatlara İanələr 7

**Şirkətin Vəsaitləri və Maliyyə İntizamı**
Uçotun aparılması, Maliyyə Hesabatlarının Verilməsi və Açıqlama 7
Aparıcı Maliyyə İşçilərinin Əlavə Məsuliyyəti 7
Biznes Xərcləri Hesabları 8
Yoxlamalar və Araşdırmalar 8
Panalpina Vəsaitlərinin Qorunması və Onlardan Lazımınca İstifadə Edilməsi 8
Qiymətli Kağızlarla Əməliyyatlar və Açıqlama (daxili məxfi məlumatlar əsasında qiymətli kağızlarla aparılan əməliyyatlar) 8
Qeyri-qanuni üsullarla əldə olunmuş pulların leqallaşdırılması 8



## Nə üçün Davranış Kodeksi? - Monika Ribar, İcraçı Direktor

Panalpina güclü aydın güclü dəyərləri və ən yüksək davranış normalarını özündə birləşdirən bir şirkətdir. Panalpinanın Davranış Kodeksi bizim inam və dəyərlərimiz üzərində qurulmaqla vicdanlılığı, düzgünlüyü, açıq və çoxşaxəli korporativ mədəniyyəti təmin etmək kimi öhdəliyimizi əhatə edir. O, öz fəaliyyətində fundamental öhdəlik təcəssüm etdirir: harada fəaliyyət göstərməyimizdən asılı olmayaraq, qüvvədə olan bütün hüquqi tələblər və yüksək əxlaqi normalar. Bu Kodeks başlıca sahələrdə bir istiqamətləndirici vasitə və daha təfərrüatlı standartlara, təlimat və ya proseslərə edilən istinadları təmin edir. O, həm də insanların onları narahat edən problem və qayğıları barədə söhbət açdıqları və məsləhət aldıqları zaman onlara qarşı etimad və inam hiss etdikləri açıq, konstruktiv və səmərəli iş mühiti yaratmaq təşəbbüsümüzü dəstəkləyir. Bu Kodeks bizim hər birimizə şamil olunur və hər hansı bir istisna olmadan Panalpinada çalışan hər bir kəs üçün məcburidir. Bütün Panalpina işçiləri bu Kodeksin tələblərinə əməl olunmasına görə məsuliyyət daşıyır və bir biznes qurumu olaraq, bizim adımız və gələcəyimiz bizim hər birimizdən asılıdır.



## Mən bu Kodeksə əməl etməliyəmmi?

Bəli. Hər bir Panalpina İşçisi bu Kodeksdə müəyyən olunmuş qayda və prinsiplərə əməl etməlidir. Bu Kodeksə əməl olunmaması intizam tədbirinin görülməsi üçün əsasdır ki, bu da işdən azadolma ilə nəticələnə bilər. Bununla yanaşı, bu Kodeksin pozulması halları həm də qanunun pozulması halları kimi qiymətləndirilə və sizin, rəhbərləriniz və/yaxud Panalpina üçün ağır mülki və ya cinayət cəzaları ilə nəticələnə bilər.

## Müxtəlif ölkələrin müxtəlif qanunları haqda nələri bilirik?

Panalpina dünya miqyaslı biznes işlərinin həyata keçirilməsi ilə məşğuldur və bu da işçilərimizin müxtəlif ölkələrin qanunlarının və hüquqi-normativ aktlarının tələblərinə tabe olmaları deməkdir. Bu Kodeks bizim harada yerləşməmizdən asılı olmayaraq, bütün qrup üçün şamil olunan biznes davranışı prinsiplərini müəyyən edir. Yerli adətlərin, normaların, qanunların və ya əsasnamələrin tələblərindən irəli gələn fərqli məqamlar mövcud olduğu hallarda siz hansının daha yüksək davranış norması müəyyən etməsi nəzərə alınmaqla ya bu Kodeksi, ya da yerli tələbləri tətbiq etməlisiniz.

## Sualım olarsa, yardım üçün hara müraciət etməli?

Sizin bir neçə seçiminiz var və siz ən münasib hesab etdiyiniz seçimdən istifadə etməlisiniz. Siz Birbaşa Rəhbərinizdən, İnsan Ehtiyatları üzrə Menecerdən soruşa, yaxud da Korporativ Uyğunluq Ofisi ilə əlaqə saxlaya bilərsiniz.

## Kodeksin pozulması ilə bağlı hara məlumat verə bilərəm?

Əgər sizdə bu Kodeksin pozulması ilə bağlı məlumat, yaxud şübhə olarsa, bu barədə Birbaşa Rəhbərinizə məlumat verin. Vəziyyətdən asılı olaraq, bu sizin Supervizorunuz və ya Şöbə Rəisiniz ola bilər. Məsələni Birbaşa Rəhbərinizlə müzakirə etmək sizdə narahatlıq doğurarsa, bu İnsan Ehtiyatları Menecerinizlə söhbət edin. Müvafiq Menecer məsələ ilə bağlı Korporativ Uyğunluq Ofisinə məlumat verəcək.

Alternativ olaraq, öz narahatlıqlarınızı müzakirə etmək üçün birbaşa Korporativ Uyğunluq Ofisinə zəng etməkdə tərəddüd etməyin.

## Digərlərinə rəhbərlik edənlərin vəzifələri

Digərlərinə rəhbərlik edən şəxslər bu Kodeksə bütün fəaliyyətlərimiz zamanı riayət olunmasının təmin edilməsinə görə xüsusi əlavə öhdəliklərə malikdirlər. Onlar öz davranışları ilə nəyin obyektiv hərəkət etmək mənasını verdiyi nümayiş etdirməli, onlara hesabat verən şəxslərin bu Kodeksin tələblərini dərk etmələrinə əmin olmalı və onların təmin edilməsi üçün müvafiq resurslara malik olmalı, habelə rəhbərlik etdikləri insanların müvafiq tələblərə əməl etmələrinə və onların davranışlarına nəzarət etməlidir. Nəhayət, onlar məsələ qaldıran və ya problemlərini bildirmək istəyən işçilərə yardımçı olmalı və istiqamətləndirici göstərişlər verməlidirlər.

# Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühit

### Sağlamlıq və Təhlükəsizlik

Panalpina bütün işçilərin təhlükəsiz və etibarlı iş mühiti ilə təmin edilməsinə həmişə sadiqdir. Hər bir ayrıca işçi  bütün tətbiq olunan sağlamlıq və təhlükəsizlik qaydaları və təcrübələrinə əməl olunmasını təmin etməklə təhlükəsiz və sağlam iş yeri saxlamaq məsuliyyətinə malikdir. İş yerində baş verən bütün bədbəxt hadisələr, təhlükəli avadanlıqlar, təhlükəli istehsal üsulu və şəraitləri barədə STƏM, yaxud İnsan Ehtiyatları Menecerinizə məlumat verilməlidir. İş yerində pozuntu halları və təhlükəli davranış yolverilməzdir və bunlar spirtli içkilərin, yaxud digər qanuni və ya qeyri-qanuni narkotiklərin təsiri altında həyata keçirilən işlər nəticəsində baş verir.

### Ətraf Mühit

Panalpina özünün bütün fəaliyyətlərində ətraf mühitə mənfi təsirləri azaltmağa çalışır və fəaliyyət göstərdiyi bütün ölkələrdə ətraf mühitin mühafizəsi üzrə qanunlara və hüquqi-normativ aktlara əməl edəcək. Bu öhdəlik və ona əməl olunması bütün işçilərimizdən tələb olunur. Panalpinanın mümkün ola biləcək ən yüksək ətraf mühit standartlarına tam şəkildə əməl etdiyini nəzərə alaraq, biz öz xidmətlərimizi ətraf mühitə qarşı lüzumsuz mənfi təsirlər törətmədən göstərmək məqsədilə fəaliyyətlərimizin bütün ekoloji aspektlərini davamlı surətdə qiymətləndirəcəyik.

# Əmək Kollektivi Üzvləri Arasında Münasibətlər

### Qarşılıqlı Ehtiram və Səmimiyyət

Biz qarşılıqlı inama əsaslanan iş şəraiti yaratmağı həmişə üstün tuturuq, çünki birlikdə çalışmaq bizim biznesimiz üçün yeni və yaradıcı imkanların yaranmasına təkan verir. Panalpinada çalışan hər bir kəs onunla ləyaqət və ehtiramla davranıldığını hiss etməlidir.

### Ayrı-seçkilik və Sıxışdırma

Panalpina işçilərinin bənzərsizliyi olduqca böyük sərvətdir və hər bir ayrıca işçi uğurlarımızın başlıca iştirakçısıdır. Biz məşğulluğun bütün sahələrində həmişə bərabər imkanlar yaratmaq əzmindəyik və hər hansı ayrı-seçkilik və sıxışdırma hallarına yol verməyəcəyik. Bu kimi hallara irqə, rəngə, dinə, yaşa, milli mənşəyə, cinsi oriyentasiyaya, ailə vəziyyətinə, yaxud əlilliyə əsaslanan ayrı-seçkilik, yaxud sıxışdırma halları daxildir. Panalpina öz işçilərini yalnız peşə keyfiyyətlərinə əsaslanmaqla işə qəbul edir, seçir və irəli çəkir.

### Mənafelərin Ziddiyyəti

Mənafelərin ziddiyyəti hər hansı bir işçinin şəxsi maraqları Panalpinanın maraqları ilə toqquşduğu zaman baş verir. Bu, sizin, yaxud yaxın ailə üzvünüzün Panalpinada tutduğunuz vəzifənin nəticəsi olaraq qeyri-qanuni gəlir əldə etdiyi, yaxud da sizin rəqiblər, sifarişçilər, yaxud təchizatçılarla Panalpina ilə olan müntəzəm iş öhdəliklərinizdən kənar biznes əlaqələri yaratdığınız təqdirdə baş verə bilər. Bununla yanaşı, siz Birbaşa Rəhbərinizi hər hansı bir münasibət yarada biləcəyiniz, yaxud da yaratmaq təsiri bağışladığı hallarda mənafelərin hər hansı bir şəkildə ziddiyyəti barədə xəbərdar etmək öhdəliyiniz var.

### Panalpina Adından Kənar Əlaqələr

İnvestorlar, analitiklər və media ilə xarici əlaqələrin qurulması hüquqi və media məsələlərinin diqqətlə nəzərdən keçirilməsini və özünəməxsus dərk edilməsini tələb edir. Yalnız spesifik qaydada bu cür etmək səlahiyyəti olan işçilər müvafiq sorğulara cavab verə bilər.

**Məxfilik**

İşçilər açıqlamaya Ərazi üzrə İcraçı Direktor tərəfindən yazılı şəkildə icazə verildiyi, yaxud da Hüquqi Xidmətlər tərəfindən təsdiq edildiyi qaydada qanun və hüquqi-normativ aktlarla tələb olunduğu hallar istisna edilməklə Panalpina, onun sifarişçiləri və təchizatçıları tərəfindən onlara həvalə olunmuş şirkətə məxsus istehsalat məlumatlarının məxfiliyini qoruyub saxlamalıdırlar. Şirkətə məxsus istehsalat məlumatlarına rəqiblərin istifadəsində ola, yaxud da açıqlandıqları təqdirdə Şirkətə və ya onun sifarişçilərinə və ya təchizatçılarına zərər vura biləcək bütün qeyri-kütləvi məlumatlar daxildir (bax həm də şirkət aktivlərinə dair bölmələrə).

## Biznes Tərəfdaşları

**Rəqabət və Ədalətli İşgüzar Münasibətlər**

Bizim davamlı uğurlarımız israrla rəqabət aparmağımızdan asılıdır. Lakin biz bunu həmişə ədalətlə və qanunlara əməl etməklə həyata keçiririk. İnam və qarşılıqlı faydaya əsaslanan biznes münasibətləri bizim uğurlarımız üçün həyati əhəmiyyət kəsb edir və biz sifarişçilərimizin, podratçılarımızın, təchizatçılarımızın və birgə müəssisələrimizin ehtiyaclarını dərk etməklə qarşılıqlı mənfəətləri inkişaf etdirməyə çalışacağıq.

**Rəqabət və Antiinhisar**

Panalpina bəzi ölkələrdə \`rəqabət\`, digərlərində isə \`antiinhisar\` adlandırılan qanunlara ciddi şəkildə əməl edir. Həmin qanunlar dünyanın hər yerində azad və ədalətli rəqabətə imkanlar yaradır və ya onu qoruyur və qiymətlərin süni şişirdilməsi sövdələşmələri kimi haqsız rəqabət davranışlarını qadağan edir. Panalpinanın heç bir işçisinin inhisarçı qiymətqoyma, qiymət tənzimləmə, bazar, yaxud müştərilərin bölüşdürülməsi, yaxud da buna bənzər qeyri-qanuni haqsız rəqabət fəaliyyətləri ilə məşğul olmasına icazə verilmir. Zəhmət olmasa, ABŞ və AB antiinhisar qanunları kimi, bəzi haqsız rəqabətə qarşı mübarizə qanunlarının hətta hərəkət müvafiq ölkənin, yaxud ölkələrin hüdudlarından kənarda baş verdiyi hallarda tətbiq oluna biləcəyini xüsusi olaraq qeyd edin.

**Rəqabətçi haqda Məlumatları**

Panalpina biznesin, sifarişçinin və təchizatının istiqamətlərini, texnoloji istiqamətləri, tənzimləmə təkliflərini və araşdırmalarını, habelə təchizatçıların və rəqabətçilərin mövcud və gözlənilən fəaliyyət istiqamətlərini öyrənib dərk etmək yalnız mövcud ədəbiyyatdan, sənaye və digər kütləvi şəkildə istifadə olunan mənbələrdən istifadə edir. Panalpina bu məlumatları ədalətli və hüquqi meyarlara əsaslanmaqla və heç zaman oğurlama, qeyri-qanuni daxil olma, rüşvət, sizin kimliyinizi saxta üsullarla təqdim etmək, yaxud da gizlicə dinləmə elektron qurğularının tətbiqi kimi şübhəli vasitələrdən istifadə etməməklə toplayır.

**Ticarət Məhdudiyyətləri**

Bir sıra ölkələr və Birləşmiş Millətlər Təşkilatı vaxtaşırı olaraq, ixracatlara və müəyyən ölkələr, hüquqi subyektlər və ayrı-ayrı şəxslərlə aparılan digər əməliyyatlara məhdudiyyətlər qoyur. Ağır cəzalar – cərimələr, ixraca icazələrinin geri tələb olunması və həbsəalma həmin məhdudiyyətlərə (həmçinin embarqolar adlanan) məhəl qoyulmadığı zaman tətbiq olunur. Panalpina bütün milli və beynəlxalq ixrac və embarqo qanunlarına və əsasnamələrinə hörmət bəsləyir.

## Rüşvət və Korrupsiya

**Rüşvət**

Panalpina işçiləri istər dövlət sektorunda, istərsə də özəl sektorda məsul vəzifədə olan hər hansı bir şəxsin qərarına və ya davranışına təsir göstərmək məqsədilə hər hansı bir qeyri-münasib imtiyaz vermir. Eynilə, Panalpina işçiləri də bu cür qeyri-müvafiq imtiyazları nə qəbul, nə də tələb edir. Bu, coğrafi məkandan asılı olmayaraq tətbiq olunur və xarici hökumət rəsmisindən, yaxud rəsmisinə, ya da xarici biznes tərəfdaşından və ya tərəfdaşına ünvanlanan qeyri-müvafiq imtiyazları da özündə cəmləşdirir.

**Asanlaşdırma Ödəmələri**

Panalpina hökumətin gündəlik qəbul etdiyi hüquqi tədbirlərin sürətləndirilməsi, yaxud onların görülməsinin təmin edilməsi məqsədilə hətta belə kiçik məbləğdə ödəmələr şəklində asanlaşdırıcı ödəmələr, yaxud "hörmət" adı altında pul məbləğləri ödəməyi qadağan edir. İstisna təşkil edən bu və ya digər hallar zamanı Şirkətin İcraçı Direktoru tərəfindən birbaşa icazə verilməsi tələb olunur. Bu prinsipin təcrübədə həyata keçirilməsi zamanı çətinliklə üzləşdiyiniz zaman əlavə göstərişlər almaq məqsədilə Birbaşa Rəhbərinizlə, yaxud da Korporativ Uyğunluq Ofisi ilə əlaqə saxlayın, çünki buna əməl etməmə Şirkət və sizin özünüz üçün ciddi nəticələrə səbəb ola bilər.

**Üçüncü Tərəflər vasitəsilə Dolayı Rüşvət**

Panalpina işçiləri rüşvət verilməsi məqsədilə üçüncü tərəflərdən istifadə etmir. Bu da öz növbəsində üçüncü tərəflər vasitəsilə asanlaşdırma ödəmələrinin həyata keçirilməsi halını özündə ehtiva edir. Panalpina işçiləri podratçıların, agentlərin və tərəfdaşların seçilməsi, habelə onların fəaliyyətinə nəzarət olunması zamanı xüsusilə ayıq-sayıq olmalı və bu məqsəd üçün müəyyən olunmuş xüsusi prosedurlara ciddi şəkildə əməl etməlidirlər.

**Bəxşişlər, Qonaqpərvərlik, Əyləncə və Xərclər**

Bəxşişlər, qonaqpərvərlik və əyləncə çox zaman davranış baxımından ümumi və sosial cəhətdən məqbul hesab olunurlar. Lakin onlardan da bəzi hallarda rüşvət verməyin bir fəndi kimi sui-istifadə oluna bilər. Buna görə də, hədiyyə verilməsi və alınması ilə bağlı ciddi qaydalar tətbiq olunur və həmişə hədiyyə verməzdən və ya almazdan öncə `Bəxşişlər, Qonaqpərvərlik, Əyləncə və Xərclər` üzrə müvafiq siyasətin müddəalarına müraciət etməniz məsləhət görülür. Həmin siyasət qonaqpərvərliyə, əyləncəyə və xərclərə şamil olunur: qonaqpərvərlik, əyləncə (qəbul etmə və təşkil etmə), yaxud xərclərlə üzləşdiyiniz zaman əlavə göstərişlər əldə etmək məqsədilə `Bəxşişlər, Qonaqpərvərlik, Əyləncə və Xərclər` üzrə müvafiq siyasətin müddəalarına müraciət edin.

**Siyasi Təşkilatlara İanələr**

Panalpinanın siyasi təşkilatlar üçün ianələrə yanaşması çox sadədir: Şirkət dünyanın heç bir yerində nə nağd, nə də natura şəklində (məsələn, əmlak və ya xidmətlərin bağışlanması, yaxud da kapitalın səfərbər olunması tədbirlərinə satılan biletlərin alınması) siyasi təşkilatlara heç bir ianə və ya yardım vermir. Lakin, Panalpina öz işçilərinin ayrı-ayrı fərdlər olaraq, müvafiq üsullarla müəyyən siyasi proseslərdə, həmin prosesdə Şirkəti təmsil etmədiyinə tam aydınlıq gətirmək şərtilə, iştirak etmək hüququnu tanıyır.

## Şirkətin Vəsaitləri və Maliyyə İntizamı

**Uçotun Aparılması, Maliyyə Hesabatlarının Verilməsi və Açıqlamalar**

Rəsmi qeydiyyatdan keçmiş bir şirkət olaraq, Panalpinanın mühasibat kitablarının, qeydlərinin, hesablarının və maliyyə sənədlərinin dolğun, düzgün, dəqiq, anlaşıqlı olması və Panalpinanın daxili nəzarətlər sisteminə uyğun şəkildə və müvafiq dürüstlüklə saxlanması mühüm əhəmiyyət kəsb edir. Bütün maliyyə əməliyyatları vaxtlı-vaxtında müvafiq kitablarda tələb olunduğu qaydada qeyd olunmalıdır, çünki təcili hesabat verilməsi rəhbərliyin erkən müdaxiləsinə imkan verir. Qeyd olunmamış, yaxud da `kitablardankənar` vəsaitlər, aktivlər, yaxud əməliyyatlar qadağan olunur.

**Aparıcı Maliyyə İşçilərinin Əlavə Məsuliyyəti**

Maliyyə hesabatının dəqiqliyinə görə məsuliyyət daşıyan aparıcı maliyyə işçiləri və digər məsul şəxslər düzgün, dəqiq, dolğun, obyektiv, ardıcıl, vaxtında və anlaşıqlı maliyyə və idarəetmə hesabatlarının verilməsinə müyəssər olmaq məqsədilə müvafiq nəzarət sistemlərinin işlək vəziyyətdə olmasını təmin etmək kimi əlavə məsuliyyətə malikdirlər.

### Biznes Xərcləri Hesabları

Bütün biznes xərcləri hesabları vaxtlı-vaxtında sənədləşdirilərək, dəqiqliklə qeyd olunmalıdır. Əgər siz hər hansı müəyyən xərcin qanuniliyinə əmin deyilsinizsə, bu zaman əvvəlcədən Birbaşa Rəhbərinizdən soruşun.

### Yoxlamalar və Araşdırmalar

Mühasibatlıq kitabları və qeydləri yoxlama üçün müşahidəçi orqanın, habelə auditorların sərbəst istifadəsinə təqdim olunmalıdır. Əgər Panalpina işçisi Panalpinanın ictimai hesabatlarının dolğun, ədalətli və anlaşıqlı olduğunu nümayiş etdirməyə dəvət olunarsa, bu zaman ondan ictimai açıqlama tələbləri ilə bağlı bütün sorğulara təcili, dəqiq və dolğun cavablar vermək tələb olunur. Məhkəmə prosesləri, yaxud hökumət araşdırmaları hallarında isə Hüquqi Xidmətlərə müraciət etməniz rica olunur.

### Panalpina Vəsaitlərinin Qorunması və Onlardan Lazımınca İstifadə Edilməsi

Bütün işçilərdən Panalpinanın vəsaitlərini qorumaq və onlardan səmərəli istifadəni təmin etmək tələb olunur. Onlar qanuni məqsədlər və yalnız Panalpinanın biznesi üçün istifadə olunmalıdır. Saxtakarlıq, oğurluq, səhlənkarlıq və israfçılıq kimi şübhəli hallar barədə Korporativ Uyğunluq Ofisinə məlumat verilməlidir, çünki bu kimi hallar Panalpinanın mənfəətliliyinə birbaşa təsir göstərə bilər. Şirkətə məxsus istehsalat məlumatlarına patentlər, ticarət nişanları, müəlliflik hüquqları, ticarət sirləri, dərc olunmamış və məxfi biznes məlumatları (sifarişçi tərəfin məlumat bazaları, proqram təminatı, marketinq strategiyaları) və i.a. kimi əqli mülkiyyət daxildir və bu həm də Panalpinanın mülkiyyəti hesab olunur. Bu informasiyadan icazəsiz istifadə olunması, onun açıqlanması və yayılması qadağan olunur və mülki və ya cinayət məsuliyyətinə səbəb ola bilər.

### Qiymətli Kağızlarla Əməliyyatlar və Açıqlama (daxili məxfi məlumatlar əsasında qiymətli kağızlarla aparılan əməliyyatlar)

Panalpina işçilərinə Panalpinanın, Panalpinanın hər hansı bir subyektinin, yaxud hər hansı digər açıqtipli səhmdar cəmiyyətinin səhmləri və ya digər qiymətli kağızları ilə bağlı `daxili` məlumatlar (hamı üçün açıqlanmamış məlumatlar) əsasında ticarət əməliyyatları həyata keçirmək, yaxud da bu cür məlumatları digərlərinə, hətta öz ailə üzvlərinə (məlumat sızdırmaq) açıqlamaq qadağan olunur. Bu cür, həm də daxili məxfi məlumatlar əsasında qiymətli kağızlarla aparılan əməliyyatlar kimi qiymətləndirilən fəaliyyət qadağan olunur və buna yol hər hansı əlaqədar şəxsin cinayət məsuliyyətinə cəlb olunması ilə nəticələnə bilər.

### Qeyri-qanuni Üsullarla Əldə olunmuş Pulların Leqallaşdırılması

Qeyri-qanuni üsullarla əldə olunmuş pulların leqallaşdırılması ayrı-ayrı şəxslərin və ya hüquqi subyektlərin qeyri-qanuni vəsaitləri gizlətməyə, yaxud da bu və ya digər şəkildə həmin vəsaitlərə qanuni don geyindirməyə cəhd göstərdikləri bir prosesdir. Panalpinanın az bir qisim işçisi `çirkli pullar`ın yuyulmasına qarşı mübarizə qanunlarının müddəalarını nə vaxtsa şəxsən poza biləcək bir mövqeyə düçar ola bilərlər. Lakin, qorxulu vəziyyətlərdə, məsələn, ödənişlərin aparılması üsullarında pozuntu hallarına rast gəlindiyi, yaxud da sifarişçilər öz əməliyyatlarında dürüstlükdən uzaq hərəkətlər büruzə verdikləri təqdirdə bu cür hallara qarşı çıxmaq üçün xüsusi səy göstərilməlidir. Panalpina cinayətdən əldə olunan gəlirlər hesab edilən nağd vəsaitləri, yaxud nağd vəsait ekvivalentlərini qəbul etməkdən çəkinmək üçün müvafiq prosedurlardan istifadə etməklə qanunsuz yollarla əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılmasına qarşı həyata keçirilən siyasətləri dəstəkləyir.